# "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

31 dekabr 2019-cu il tarixinə bitən il üzrə
**Maliyyə Hesabatları**

Deloitte.

Deloitte & Touche LLAC
Baku White City Office Building,
Nobel avenue, 25E
Baku, AZ1025
Azerbaijan
Tel: +994 (12) 404 12 10
Fax: +994 (12) 404 12 11
deloitte.az

## MÜSTƏQİL AUDİTOR RƏYİ

"Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin Səhmdarına və Rəhbərliyinə:

### Rəy

Biz "Azərbaycan İstilik Elektrik Stansiyası" Məhdud Məsuliyyətli Cəmiyyətinin ("Şirkət") 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyəti haqqında hesabatdan və həmin tarixə başa çatan il üzrə mənfəət və ya zərər və digər məcmu gəlirlər, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında hesabatlardan, habelə mühüm mühasibat uçotu siyasətlərinin icmalı daxil olmaqla qeydlərdən ibarət olan maliyyə hesabatlarının auditini apardıq.

Bizim fikrimizcə, əlavə edilən maliyyə hesabatları Şirkətin 31 dekabr 2019-cu il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə başa çatan il üzrə maliyyə nəticələri və pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatları üzrə Beynəlxalq Standartlara ("MHBS") uyğun olaraq bütün əhəmiyyətli aspektlər üzrə düzgün əks etdirir.

### Rəyin əsasları

Biz auditi Beynəlxalq Audit Standartlarına ("BAS") müvafiq olaraq həyata keçirdik. Həmin standartlar üzrə bizim məsuliyyətimiz irəlidə hesabatın *Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti* bölməsində təsvir olunur. Biz, *Mühasiblər üçün Beynəlxalq Etika Standartları Şurasının Peşəkar Mühasiblər üçün Etika Məcəlləsinə ("MBESŞ Məcəlləsi")* uyğun olaraq Şirkətdən asılı olmadan müstəqil şəkildə fəaliyyət göstəririk və etika ilə bağlı digər öhdəliklərimizi MBESŞ Məcəlləsinə uyğun olaraq yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və uyğun əsası təmin edir.

### İzahedici paraqraf – Düzəlişlərlə əlaqədar yenidən təqdimat

Diqqətinizi maliyyə hesabatlarının 31 dekabr 2018-ci il tarixinə müvafiq rəqəmlərin yenidən təqdim olunmasını əks etdirən 22 saylı qeydinə yönəltmək istəyirik. Bu məsələ ilə bağlı rəyimiz dəyişmir.

### Digər məsələ - Öncəki auditor

Azərbaycan İstilik Elektrik Stansiyası MMC-nin 31 dekabr 2018-ci il tarixə başa çatan il üzrə maliyyə hesabatlarını həmin maliyyə hesabatları üzrə 25 mart 2019-cu ildə dəyişiklik edilməmiş rəy bildirən digər auditor tərəfindən audit edilmişdir.

### Maliyyə Hesabatları üzrə Rəhbərliyin və İdarəetmə Səlahiyyətləri Olan Şəxslərin Məsuliyyəti

Rəhbərlik maliyyə hesabatlarının MHBS-yə uyğun olaraq hazırlanması və düzgün təqdim edilməsi, həmçinin fırıldaqçılıq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq mühüm təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasını təmin etmək üçün rəhbərliyin zəruri saydığı daxili nəzarət üzrə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırlayarkən, rəhbərliyin Şirkəti ləğv etmək və ya əməliyyatlarını dayandırmaq niyyətində olduğu və ya bunu etməkdən başqa heç bir real alternativi olmadığı hallar istisna olmaqla, rəhbərlik Şirkətin fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsi qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsizliklə bağlı məsələlərin açıqlanmasına və mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetmə səlahiyyəti olan şəxslər Şirkətin konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarət üçün məsuliyyət daşıyırlar.

**Maliyyə Hesabatlarının Auditi üzrə Auditorun Məsuliyyəti**

Bizim məqsədimiz ümumilikdə maliyyə hesabatlarında fırıldaqçılıq və ya səhv nəticəsində yarana biləcək mühüm təhriflərin olmaması barədə kifayət qədər əminlik əldə etmək və rəyimizi özündə birləşdirən auditor hesabatını təqdim etməkdir. Kifayət qədər əminlik yüksək səviyyəli əminliyi əks etdirir, lakin bu, BAS-a uyğun olaraq aparılan audit nəticəsində hər zaman mövcud olan bütün mühüm təhriflərin aşkar ediləcəyinə zəmanət vermir. Təhriflər fırıldaqçılıq və ya səhv nəticəsində yarana bilər və fərdi və ya məcmu halda götürməklə, istifadəçilərin hazırkı maliyyə hesabatları əsasında qəbul edəcəyi iqtisadi qərarlara təsir göstərmələrini ehtimal etməyə əsas olacağı hallarda əhəmiyyətli hesab edilir.

BAS-a uyğun olaraq aparılmış auditin bir hissəsi kimi, biz audit zamanı peşəkar mülahizələr irəli sürür və peşəkar inamsızlığı qoruyub saxlayırıq. Biz həmçinin:

- Maliyyə hesabatlarının fırıldaqçılıq və ya səhv nəticəsində əhəmiyyətli şəkildə təhrif olunması risklərini müəyyən edir və qiymətləndirir, həmin risklərə cavab olaraq audit prosedurlarını tərtib edir və həyata keçirir, həmçinin rəyimiz üçün əsas verəcək yetərli və uyğun audit sübutu əldə edirik. Fırıldaqçılıq nəticəsində yaranmış mühüm təhriflərin aşkar olunmaması riski səhv nəticəsində yaranmış mühüm təhriflərin aşkar olunmaması riskindən yüksəkdir, belə ki, fırıldaqçılığa gizli sövdələşmə, saxtakarlıq, qəsdən səhv buraxma, yanlış təqdimat və ya daxili nəzarət qaydalarına əməl olunmaması daxil ola bilər.
- Müəyyən şəraitlərdə münasib olan audit prosedurlarının tərtib edilməsi məqsədilə auditə aid olan daxili nəzarət elementləri haqqında anlayış əldə edir, lakin bu zaman Şirkətin daxili nəzarət mexanizminin səmərəliliyi barədə rəy bildirmək məqsədi güdmürük.
- Rəhbərlik tərəfindən istifadə edilmiş mühasibat uçotu prinsiplərinin münasibliyini, edilmiş uçot təxminlərinin və aidiyyəti açıqlamaların əsaslılığını qiymətləndiririk.
- Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsizlik prinsipindən istifadənin müvafiqliyi və əldə olunmuş audit sübutuna əsaslanaraq Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməsinə şübhə yarada biləcək hadisə və ya şəraitlərlə bağlı mühüm qeyri-müəyyənliyin mövcud olub-olmaması barədə nəticə çıxardırıq. Mühüm qeyri-müəyyənliyin olması qənaətinə gəldiyimiz halda, biz auditor hesabatımızda diqqəti maliyyə hesabatlarının müvafiq açıqlamalarına yönəltməli və ya belə açıqlamalar qeyri-kafi olduqda rəyimizə düzəliş etməliyik. Bizim nəticələr auditor hesabatımızın tarixinədək əldə olunan audit sübutuna əsaslanır. Bununla belə, gələcək hadisə və şəraitlər Şirkətin öz fəaliyyətini fasiləsizlik prinsipi ilə davam etdirməməsinə səbəb ola bilər.
- Maliyyə hesabatlarının ümumi təqdimatı, struktur və məzmunu, o cümlədən açıqlamaları və maliyyə hesabatlarının təməl əməliyyat və hadisələri düzgün əks etdirib-etdirməməsini qiymətləndiririk.

Biz idarəetmə səlahiyyətləri olan şəxslərə digər məsələlərlə yanaşı, auditin planlaşdırılmış əhatə dairəsi və vaxtı, audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarətdə aşkar etdiyimiz hər hansı mühüm çatışmazlıqlar barədə məlumat veririk.

Deloitte + Touche LLC

DELOITTE & TOUCHE MƏHDUD MƏSULİYYƏTLİ AUDİTOR CƏMİYYƏTİ AZERBAIJAN

24 noyabr 2020-ci il

**"AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI"**
**MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ**

**31 DEKABR 2019-CU İL TARİXİNƏ BİTƏN İL ÜZRƏ**
**MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT**
*(Min Azərbaycan manatı ilə)*

| | **31 dekabr 2019-cu il tarixinə bitən il** | **31 dekabr 2018-ci il tarixinə bitən il (yenidən təqdim olunmuş*)** |
|---|---|---|
| Enerji satışı | 269,029 | 273,085 |
| Xərclər: | | |
| Yanacaq | (200,042) | (218,683) |
| Köhnəlmə | (31,990) | (29,006) |
| Təmir və texniki xidmət | (24,712) | (7,467) |
| İşçi heyətinin saxlanılması xərcləri | (7,035) | (5,025) |
| Mənfəət vergisindən başqa digər vergilər | (2,454) | (1,742) |
| Xammal və materiallar | (6,326) | (1,459) |
| Debitor borclar ehtiyatında dəyişiklik | - | 1,305 |
| Digər | (2,130) | (2,330) |
| *Əməliyyat (zərəri) / mənfəəti* | **(5,660)** | **8,678** |
| Əmlak, tikili və avadanlıq üzrə dəyərsizləşmə zərəri | (199,370) | - |
| İstismardan çıxarma üçün ehtiyatda dəyişiklik | 12,013 | - |
| Kreditor borcların silinməsi | - | 10,015 |
| Maliyyə xərcləri, xalis | (2,590) | (3,724) |
| *Mənfəət vergisindən əvvəl (zərər) / mənfəət* | (195,607) | 14,969 |
| Mənfəət vergisi xərcləri | (1,364) | (2,889) |
| **CƏMİ İL ÜZRƏ MƏCMU (ZƏRƏR) / MƏNFƏƏT** | **(196,971)** | **12,080** |

# "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

## 31 DEKABR 2019-CU İL TARİXİNƏ MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA HESABAT

*(Min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2019-cu il | 31 dekabr 2018-ci il (yenidən təqdim olunmuş*) | 1 yanvar 2018-ci il (yenidən təqdim olunmuş*) |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| *Uzunmüddətli aktivlər* | | | |
| Əmlak, tikili və avadanlıq | 323,697 | 392,416 | 409,939 |
| Əmlak, tikili və avadanlığın alınması üçün verilmiş avanslar | 56,682 | 25,699 | - |
| Əvəzləşdirilən ƏDV | 31,389 | - | - |
| Digər uzunmüddətli aktivlər | 16,982 | 4,508 | 5,057 |
| *Cəmi uzunmüddətli aktivlər* | 428,750 | 422,623 | 414,996 |
| *Qısamüddətli aktivlər* | | | |
| Mal-material ehtiyatları | 96,997 | 90,009 | 63,646 |
| Əvəzləşdirilən ƏDV | 11,594 | 15,048 | 15,992 |
| Ticarət və digər debitor borcları | 263 | 101 | 57,538 |
| Qabaqcadan ödənişlər | 13,720 | 18,471 | 4,092 |
| Nağd pul və pul vəsaitlərinin ekvivalentləri | 2,028 | 216 | 136 |
| *Cəmi qısamüddətli aktivlər* | 124,602 | 123,845 | 141,404 |
| **CƏMİ AKTİVLƏR** | **553,352** | **546,468** | **556,400** |
| **KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | | | |
| *Kapital* | | | |
| Nizamnamə kapitalı | 5,108 | 5,108 | 5,108 |
| Əlavə ödənilmiş kapital | 267,810 | 78,706 | 56,110 |
| Bölüşdürülməmiş mənfəət | 81,595 | 278,566 | 266,486 |
| *Cəmi kapital* | 354,513 | 362,380 | 327,704 |
| *Uzunmüddətli öhdəliklər* | | | |
| Təxirə salınmış vergi öhdəlikləri | 28,443 | 27,207 | 26,394 |
| İstismardan çıxarma üzrə öhdəlik | - | 12,564 | 14,809 |
| *Cəmi uzunmüddətli öhdəliklər* | 28,443 | 39,771 | 41,203 |
| *Qısamüddətli öhdəliklər* | | | |
| Ticarət və digər kreditor borcları | 167,872 | 141,939 | 172,965 |
| Cari mənfəət vergisi öhdəlikləri | 614 | 2,056 | 7 |
| Mənfəət vergisi üzrə kreditor borclardan başqa vergilər | 1,910 | 322 | 14,521 |
| *Cəmi qısamüddətli öhdəliklər* | 170,396 | 144,317 | 187,493 |
| *CƏMİ ÖHDƏLİKLƏR* | 198,839 | 184,088 | 228,696 |
| **CƏMİ KAPİTAL VƏ ÖHDƏLİKLƏR** | **553,352** | **546,468** | **556,400** |

## "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2019-CU İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

*(Min Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Əlavə ödənilmiş kapital | Bölüşdürülməmiş mənfəət | Cəmi |
|---|---|---|---|---|
| **1 yanvar 2018-ci il tarixinə qalıq** | **5,108** | **56,110** | **266,486** | **327,704** |
| İl üzrə cəmi məcmu mənfəət (*yenidən təqdim olunmuş) | - | - | 12,080 | 12,080 |
| Səhmdardan əldə olunmuş vəsaitlər | - | 22,596 | - | 22,596 |
| **31 dekabr 2018-ci il tarixinə qalıq (yenidən təqdim olunmuş*)** | **5,108** | **78,706** | **278,566** | **362,380** |
| İl üzrə cəmi məcmu zərər | - | - | (196,971) | (196,971) |
| Səhmdardan əldə olunmuş vəsaitlər | - | 189,104 | - | 189,104 |
| **31 dekabr 2019-cu il tarixinə qalıq** | **5,108** | **267,810** | **81,595** | **354,513** |

## "AZƏRBAYCAN İSTİLİK ELEKTRİK STANSİYASI" MƏHDUD MƏSULİYYƏTLİ CƏMİYYƏTİ

### 31 DEKABR 2019-CU İL TARİXİNDƏ BİTƏN İL ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

*(Başqa qeydlər olmazsa min Azərbaycan manatı ilə)*

| | 31 dekabr 2019-cu il tarixinə bitən il | 31 dekabr 2018-ci il tarixinə bitən il (yenidən təqdim olunmuş*) |
|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Mənfəət vergisindən əvvəl (zərər) / mənfəət | (195,607) | 14,969 |
| *Düzəlişlər:* | | |
| Köhnəlmə və amortizasiya | 31,990 | 29,006 |
| Əmlak, tikili və avadanlıq üzrə dəyərsizləşmə zərəri | 199,370 | - |
| Debitor borclar ehtiyatında dəyişiklik | - | (1,305) |
| Mal-material ehtiyatlarında dəyişiklik | 390 | 76 |
| İstismardan çıxarma hesablamasında dəyişiklik | (12,021) | 1 |
| Maliyyə xərcləri, xalis | 2,591 | 3,724 |
| Kreditor borcların silinməsi | - | (10,015) |
| **Dövriyyə kapitalında dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətləri üzrə daxil olan pul vəsaitləri** | **26,713** | **36,456** |
| Mal-material ehtiyatlarında dəyişiklik | (20,392) | (25,885) |
| ƏDV-nin əvəzləşdirilməsində dəyişiklik | (29,987) | 8,875 |
| Ticarət və digər debitor borclarında dəyişiklik | 568 | 58,698 |
| Qabaqcadan ödənişlərdə dəyişiklik | 4,644 | (14,325) |
| Ticarət və digər kreditor borclarında dəyişiklik | 23,364 | (30,696) |
| Vergi öhdəliklərində dəyişiklik | 3,573 | (11,943) |
| **Mənfəət vergisi üzrə ödənişlərdən əvvəl əməliyyatlardan daxil olan pul vəsaitləri** | **8,483** | **21,180** |
| Ödənilmiş mənfəət vergisi | (1,504) | (16) |
| **Əməliyyat fəaliyyətləri üzrə əldə olunmuş xalis pul vəsaitləri** | **6,979** | **21,164** |
| **İNVESTİSİYA FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Əmlak, tikili və avadanlıq üçün ödənişlər | (194,248) | (43,670) |
| **İnvestisiya fəaliyyətlərində istifadə olunan xalis pul vəsaitləri** | **(194,248)** | **(43,670)** |
| **MALİYYƏ FƏALİYYƏTİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | |
| Səhmdardan vəsaitlərin alınması | 189,104 | 22,597 |
| **Maliyyə fəaliyyətlərindən əldə olunan xalis pul vəsaitləri** | **189,104** | **22,597** |
| **PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİNDƏ XALİS ARTIM** | **1,835** | **91** |
| **İLİN ƏVVƏLİNDƏ PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **216** | **136** |
| Valyuta məzənnələrində dəyişikliklərin xarici valyutada saxlanılan pul vəsaitlərinin ekvivalentlərinə təsiri | (23) | (11) |
| **İLİN SONUNDA PUL VƏSAİTLƏRİ VƏ PUL VƏSAİTLƏRİNİN EKVİVALENTLƏRİ** | **2,028** | **216** |